Ədəbiyat Qəzeti

Yaponiya - Günəşlə oyanıb yüksələn ölkə

Hüseynbala MİRƏLƏMOV

Övvəli ötən sayımızda

Dostluq telləri uzaq yolları yaxınlaşdırır

Səfərimizin proqramına uyğun olaraq, Razim Mommodov başda olmaqla nümayəndə heyətimiz Yaponiya hökumətinin Xarici İşlər Nazirliyinin, həkim siyasi partiyanın, Tokio prefekturasının rəsmi nümayəndələri və Azərbaycanla əməkdaşlıqda maraqlı olan bir sıra yapon şirkətlərinin rəhbərləri ilə görüşlərək işgüzar müzakirələr apardı.

Yaponiya xarici işlər nazirinin müavini Motome Takizava ilə görüşümiz bir çox cəhətən yadda qalan oldu. Nazir müavini bizi öz dəftərxanında qəbul etməkdən məmnun olduğunu bildirdikdə qeyd etdi ki, o, 2016-cı ilin avqustunda Azərbaycana səfərindən böyük təəssüratlarla qayıtmışdır. Ölkəmizdə gördüyü müasir və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Motomo Takizava Prezident İlham Əliyevlə keçirilən görüşün əhəmiyyətini xüsusi qeyd etdi: "Azərbaycanın dövlət başçısının Xətai rayonundakı Heydər Parkində "Yapon bağı"nın salınmasına razılığı verilməsi isə mənə çox məmnun etdi. Bu onu göstərir ki, Azərbaycanda Yaponiyanın mədəniyyətini tanıtmaq, qüsursuzluğunu göz-lüyümüz maraq var. Bu gün mehriz Xətai rayonunun nümayəndə heyətinin bizim ölkəyə sə-fəri iki ölkə arasında regionlararası əməkdaşlığın genişləndirilməsi baxımından çox əhəmiyyətlidir və Yaponiya XİN bu əlaqələrin inkişafı üçün lazım olan bütün dəstəyi göstərəcəkdir".

Yaponiya parlamentinin müşavirlər palatasının üzvü olmuş Yoşiko Santo ilə görüşümüz də çox səmimi və maraqlı oldu. Bu gün iki ölkə arasında dostluq münasibətlərinin romantik xarakter daşıdığını Yoşiko Santo "Yapon bağı"nda söz açan xanım Akiko Santo vurğuladı ki, bizi yaxınlaşdıran tarixi, mədəni və mənəvi dəyərlər çoxdur.

Tokio prefekturasının qubernatorunun axırıncı ələqələr üzrə müşaviri Fildeaki Mizukoşi, Nazirlər Kabinetinin iqtisadi siyasət üzrə müşaviri Nidəaki Okamoto və Yaponiya hökumətinin Asiya, Conubi Qafqaz və GUAM ölkələri üzrə xüsusi nümayəndəsi, səfir Toşihiko Aki Yaponiya dövlətinin Azərbaycan Respublikası ilə hərtərəfli əməkdaşlığın inkişafında maraqlı olduğunu, səfər zamanı ölkə rəhbərlərinin bu sahədə keçirilməsini nəzərdə tutduğu görüşlərin isə Azərbaycanda tədbirlərin yüksək səviyyədə keçirilməsinə zəmin yaradacağını bildirdi.

Yaponiya Parlamentinin Nümayəndələr Palatasının üzvü, LDP-nin Xarici Əlaqələr Bürosunun baş direktorunun müavini Yasumasa Naqasaka, Xarici İşlər Nazirliyinin Avropa bürosunun Mərkəzi Asiya və Qafqaz üzrə direktoru Seiiçro Takahaşi, "Kosuqi Cohen Co.,LTD" şirkətinin rəhbəri Seki Kosuqi və digər şəxslər ilə səmərəli görüşlər hər iki tərəfdən böyük maraqla qarşılandı.

İndiso Xətai rayonu ilə qardaşlaşmış Səbunçıya şəhəri haqqında: Setaqaya yonun Bakı kimin Xətai rayonu kimi Tokionun 23 xüsusi rayonundan ən böyüyü, necə deyərlər, Tokiyoya ponderardır. Orazisi 58,08 kvadratkilometr, əhalisi 898 min nəfərdir. Tokionun cənub-qərbində yerləşən bu rayonu Kanaqava prefekturasından Tama çayının su xətti ayırır.

Setaqaya bizim Xətai rayonu kimi, sosial-mədəni yaşayış məhəllələrindən ibarətdir və 5 yeri ayrılır: Setaqaya, Tamaqaya, Kitadzava, Kinuta və Karasuyama. Onların hər birinin öz administrasiyası var, baxmayaraq ki, Setaqaya inzibati orazi dairəsinə daxildirlər.

Digər xüsusi rayonlar kimi Setaqaya da öz statusunu 1947-ci il martın 15-də aldı. Ədə orasında bu orazidə 42 küçə kənd yerləşmişdir. 1871-ci ildə onlardan bir qismi Tokio prefekturasına, bir qismi isə Kanaqava prefekturasına birləşmişdir. Bir qədər sonra, 1893-cü ildə daha bir neçə kənd də Tokiyoya birləşdi. 1932-ci ildə Setaqaya şəhər rayonunun yaranması baş verdi. 1936-cı ildə tələbiyna bir neçə kənd da verilməsən sonra o bugünkü orazisi əldə oldu. Kanadanın Vinnipeq, Avstraliyanın Benberi şəhərləri, Vyanna-nın Döblinq rayonu Setaqaya ilə qardaşlaşmış şəhərlərdir. İndi onların sırasına Xətai rayonu da əlavə olunmuşdur.

Elə buna görə də Setaqaya şəhərinin meri Nobuto Hosaka ilə görüşümüz daha geniş və maraqlı alındı. Mer Nobuto Hosaka bizi çox böyük səmimiyyətlə qarşıladı. Söhbətindən mono də, yoldaşlarına da bəlli oldu ki, Azərbaycan haqqında zəngin məlumatı var. Özü qeyd etdi ki, Azərbaycanın Ermənistan tərəfindən ədalətsiz müharibəyə cəlb edilməsino və orazilərinin işğal olunmasına baxmayaraq, ölkənin son illərdəki inkişafından sevinir. Bu, onun sözləridir. Gümən edirəm ki, bu müharibə olmasaydı Azərbaycan daha böyük uğurlar qazana bilərdi.

Mer, Setaqaya şəhəri və Xətai rayonu arasında dostluq münasibətlərinin qurulması məqsədilə qarşılıqlı təbliqatın qarşılanmasının əhəmiyyətini və vacibliyini vurğuladı. Setaqaya şəhərinin ekologiya məsələlərino xüsusi diqqət yetirdiyini qeyd edən N.Hosaka Xətai rayonundakı "Ağ şəhər" layihəsinin bu istiqamətdə tocrübə mübadiləsi üçün əhəmiyyətli olacağını söylədi. Nümayəndə heyətimiz Yaponiya-da bu işlərlə və humanitar sahələrlə məşğul olan dəstlə imkanlarını nəzərə alaraq, yapon nümayəndələri, sülasiə Setaqaya şəhərinin meri ilə Azərbaycana dəvət etdi.

Görüşlər zamanı şəhidi olduğumuz başçımız anaqun bu idi ki, iki rayonun - Xətai və Setaqaya şəhərlərinin uyğunluğu təqdirdə Yaponiyada görüşdüyümüz bütün məsul şəxslər tərəfindən böyük maraqla qarşılandı və alqışlandı. Onlar bununla əslində bildirdilər ki, bu layihənin, elcə də, digər qardaşlaşmaların heç də onlara ağır gəlməyəcəyini bütün ciddiliylə bəyan etdilər. Ancaq ulu öndərimiz Heydər Əliyev hökmiyyətə gəlməzdən sonra "Bir vəz-kiyal gələcək "qara şəhər"dən" qovrulacaqdır" deyib, bu rayona daqqat və qayğısını göstərmişdi. 10 ildən artıqdır ki, onun əzizləri həyatın realliqlərə çevrilib və indi həqiqətən xoşbəxtdir. Bu, onların sözləridir.



Tanınmış yazıçı-dramaturq, Milli Məclisin deputatı Hüseynbala Mirələmov həm nəsr, həm dram, həm də publisistik əsərlərin müəllifi kimi geniş oxucu kütləsinin yaxşı tanışdır. Onun publisistikasında müxtəlif ölkələrə səyahətlərə bağlı təəssüratların özünəməxsus yer tutur. "Cinlə müharəyəm on gün" və 2015-ci ildə rus dilində işıq üzü görmüş "Çin - dünyanın sakkizinci möcüzəsi" əsərləri ədəbiyyatsevərlər tərəfindən maraqla qarşılanıb. Müsəlliflə Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, qonşu Gürcüstan və s. ölkələrdən bəhs edən yol qeydləri də bu qəbildəndir. Yazıçı son dəfə Azərbaycan nümayəndə heyətinin tərkibində Yaponiyada olmuş və öz təəssüratlarını yaxşılı yəkildə qələmə almışdır. H.Mirələmovun "Yaponiya - Günəşlə oyanıb yüksələn ölkə" adlı publisistik qeydlərini qəzetimizin oxucularına təqdim edirik.

Yaponiya Xarici İşlər Nazirliyində və bir çox digər dövlət orqanlarında görüşlərimizdə əsas mövzulardan biri də, təbii ki, bu gün xalqımızı ən çox narahat edən Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın Ermənistan tərəfindən işğal olunması, təcavüzkarların Xocalıda və bir çox digər yerlərdə törətdikləri soyqırımı faktları idi. Nümayəndə heyətimizin rəhbəri Yaponiyanın dövlət rəsmilərino, o sıdamlarına işğal ilkin və faciələr haqqında müfəssəl məlumat vərəvək bildirdi ki, Xocalı faciəsino qoyulmuş abidə Xətai rayonunda yerləşir və dünyanın bir çox dövlətləri artıq bu faciəni Ermənistanın azərbaycanlılara qarşı törətdiyi soyqırım faktı kimi tanıyır. Xətai rayonunun beynəlxalq əməkdaşlığından - Türkiyənin Mersin vilayətinin Tarsus şəhəri və Belarusun Minsk şəhərinin Leninski rayonu ilə qardaşlıq münasibətlərindən də gəniş bəhs edildi. Qeyd olundu ki, bu əlaqələrdə Yaponiyanın Tokio şəhərinin də xüsusi yeri var.Tarsus şəhərində Heydər Əliyevin adını daşıyan küçənin və parkın inşa edildiyini, homin parkda morhum prezidentin abidəsinin ucaldıldığını qeyd edən Razim Mommodov gəlacəddə Tokio prefekturasının Setaqaya şəhəri ilə də bu istiqamətdə layihələrin gerçəkləşdirilməsini və homin əməkdaşığın hər iki tərəf üçün faydalı olacağını bildirdi. Yaponiya iş adamları ilə aztaq Bakıda belə bir layihə gerçəkləşdirilib və 2015-ci ildə Xətai rayonunda "Kosuqi Zohen Co.LTD" şirkəti tərəfindən salınmış "Yapon bağı" buna qayıl sübutdur.

Milli Məclisin deputatı və YAP Xətai rayon təşkilatının sədri kimi mən də 2017-ci ildə Azərbaycan və Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin qeyd edilməsini vurğulayaraq bildirdim ki, iki dövlət arasında diplomatik münasibətlərin mükəmməlməsino xalqlar arasında qarşılıqlı dostluq əlaqələri böyük rol oynayır. Eyni zamanda Yeni Azərbaycan Partiyası ilə Yaponiyanın həkim Liberal Demokratik Partiyası arasında qurulmuş münasibətdə əlaqələrinin mükəmməlməsi baxımından qarşılıqlı səfərlərin və dialoqun artırılmasının vacibliyino diqqət çəkdim.

LDP-nin xarici əlaqələr bürosunun rəhbəri, parlamentin üçvü Kazunori Tanaka da 2018-ci ilin mayında ölkəmizə uğurlu səfərindən böyük məmnunluq hissi ilə danışdı və hakim partiyalar arasında yaranmış dostluq münasibətlərinin daha da gücləndirilməsinə maraqlı olduqlarını qeyd etdi.

"Yapon doğulmaq xoşbəxtlikdir"

Yaponlar ünsiyyətdə olduqları əcnəbilərin yaddaşında xoş təəssürat yaradırlar. Onlar öz vətəni və soydaşları haqqında söhbət edəndə, daxili bir cəsarət ilə "Yapon doğulmaq xoşbəxtlikdir", - deyir, yapon doğuluqları üçün həqiqətən qürur duyurlar. Dünyanı məst qoyan yapon möcüzəsinin təməlində "Kayzen" dəyirlən prinsip duyanır. Kayzen - yapon sözü olub, mənası "yaxşılığa doğru dəyişmək", "təkşaf etmək" deməkdir. Sözün düzgün yazılış forması "kaizen"dir. Lakin dilə yatımlığına görə kayzen şəklində tələffüz edilir. "Kaizen" həm də keyfiyyət mənasını sistemdir. Ossan, sonuyedo, xüsusilə Toyota şirkətində tətbiq edilso da, Kayzen günlərlə həyatda da istifadə olunur. Bu isə, "davamlı olaraq təkmilləşdirmə, mütəmadi iroliyə getmə, hər günü öncəki günün dayanaq yaşıl" başa vurmağa şobəb olan Kayzen sistemi yaponların, demək olar, bütün ugurlarının səasını təşkil edir..

Yapon idarəçiliyində Kayzen prinsipinə uyğun olaraq qısaca deyil. keyfiyyət ünsi-

davamı gələn sayımızda

dır. Qərbdə əgər hər işdə yenilik və nəticə öndə-dirsə, Yaponiyada proses və keyfiyyət hər şeydən öndə gəlir. Məsələn, Toyotada işləyənlər il ərzində otlamma 33 təklif verirlər ki, bunun da məqsə-dəuyğun olanları dərhal icra olunur. Şirkətdə tək-lif vermək yaponlar üçün vəzifə borcu kimi bir şeydir. Yaponlarda kollektiv ruh inanılmaz dərə-cədə yüksəkdir.

Yapon firmalarında idarəetmə müvəffəqiyyə-tə zəmin yaradır. Texnoloji üstünlüklərini hər sa-hədə dahicəsinə inkişaf etdirən yapon firmaları mövcud dünyada sarsılması qeyri-mümkün olan bir imperiya qurublar. Bəs yapon firmalarının uğurlarının təməlindəki sirr nədir?

Əslində, kiçik bir araşdırmayla bunu anlamaq heç də çətin deyildir. İşgüzar rəhbərlik üslubu, şəffaflıq, bərabərlik, maddi imkanlar və ən vacibi "dəmi moşğulluq" anlayışları bu müvəffəqiyyəti tam izah edir. Yüksək səviyyədə təşkil edilmiş "firma-işçi" münasibətləri və insanların işlədikləri firmaları bir ailə təşkilatı kimi görmələri, davamlı olaraq, yüksək məhsuldarlığın təminatçısı-dır. Yapon idarəetməsinin möhtəşəm uğurlarını nəzərə alaraq, bu sistemin bəzi sirlərini sizə açıq-layırıq.

Müasir dünyada yapon şirkətlərinin müvəffə-qiyyəti heyrətamizdir: xüsusilə avtomobil, elektrik və elektronika sahələrində müşahidə olunan inanılmaz artım bütün dünyanın marağına səbəb olmuşdur. Uğurlu yapon idarəetməsinin sirlərini öyrənib tətbiq etmək çox faydalıdır. Hal-hazırda dünyanın bir çox iri şirkətləri Yaponiyadakı şir-kətlərin strukturunu, iş sistemini və qaydalarını dərindən öyrənirlər. Yapon şirkətlərini müvəffə-qiyyətə aparan şey, ayrı-ayrılıqda nə insan fakto-ru, nə də sistemdir. Yapon idarəetməsindəki mü-vəffəqiyyətin sirri "təşkilat mədəniyyəti" və ya "təşkilat iqlimi"ndə axtarılmalıdır. Təşkilat mədə-niyyəti bir təşkilatdakı bütün ünsürləri ehtiva et-məkdədir : rəhbərlik, işçilər, iş alətləri və ya tex-nika, sistem, ətraf mühit və s.

Bu ünsürlərin heç biri bir təşkilatı təkbaşına uğurlara apara bilməz. Yaxşı yetişmiş, səriştəli in-san gücü özünə dəyər verməyən, motivasiyanı yüksəltməyən, təqdir etməyən və mükafatlandır-mayan bir idarəetmədə yüksək performans göstə-rə bilməz. Rəhbərliyin vizion və missiya sahibi olması çox vacibdir. Vizion olmadan missiya ol-maz, missiya olmadan da reallaşdırılması nəzərdə tutulan hədəfə, yəni viziona çatmaq olmaz.

Yaponlar öz işlədiyi yerə məbəd kimi baxırlar

Səfirliyimizin əməkdaşları Rövşən və Fuadın müşayiətilə Tokioda gəzərkən böyük bir ticarət mərkəzinə daxil olduq. İş gününün sonu idi. Biz qapıdan içəri daxil olanda işçilərdən bir neçəsi iş vaxtları başa çatdığı üçün çalışdıqları mağazanın qapısını bağlayıb evə getməyə hazırlaşırdı. Onla-rın hər biri çıxışa yaxınlaşanda geri dönüb təzim edir, sonra ticarət mərkəzini tərk edirdilər. Rövş-əndən soruşdum ki, onlar niyə belə edirlər? Ca-vab verdi ki, onlar öz işlədikləri yerə ehtiram ələ-məti olaraq təzim edirlər.

Bu zəhmətkeş xalqın adəti məni heyrətə saldı. Hoqiqətən çox maraqlı, həm də təqdirəlayiq bir adətdir. İşlədiyin hər hansı bir müəssisənin qapı-sından çıxarkən geri çevrilib ehtiramla o yerə baş əyib, təzim edəsən!.. Niyə də yox!? Axı bu fəhlə və ya hər hansı işçi çalışdığı iş yerindən qazandığı pulla ailəsini saxlayır. Elə ona görə də, özünün və ailəsinin gələcəyini düşünərək çalışdığı iş yerinə məbəd kimi baxır.

Bütün bunlara rəğmən, yaponlar çalışdıqları ölkənin, hər hansı yerin qayda-qanunlarına, adət-ənənələrinə çox ehtiramla yanaşırlar.

Sözə güvvət: Səfərin son günü axşamüstü qal-dığımız otelin birinci mərtəbəsindəki restoranda oturub nahar edirdik. Həmişəki kimi, səfir Gursel İsmayılzadə də, səfirliyin əməkdaşları Rövşən və Fuad da bizimlə süfrə başında idilər. Fuad Azər-baycandan sovqat göndərilmiş iri bir narı soliqo ilə doğrayıb masaya qoydu. Bir neçə dəqiqədən sonra inzibatçı üzündə təbəssüm bizim masaya yaxınlaşıb, narı masadan yığışdırmağı xahiş etdi.

Səbəbini soruşanda bildirdi ki, restoranda nar yoxdur, əgər başqa müştərilər görüb sifariş versə-lər və onların arzusunu yerinə yetirməsək, onda restoranın adına xələl gələr, hətta bağlanmaq təh-lükəsi ilə üzləşə bilər. Biz də təbəssümlə ifadə edilən xahişə hörmətlə yanaşıb narı stoldan götür-dük...

İkinci belə əhvalat çox xudmani bir qəlyanal-tıda baş verdi. Xidmətçi çay süfrəsinədə özümüzlə alıb gətirdiyimiz limondan istifadə etməyi, xətrimizə dəyməyəcək tərzdə "qadağan" etdi. Amma müştərilərə qadağa olunan təkcə bu deyil. Yapo-niyada satıcılara, ofisiantlara çay pulu vermək qə-ti qadağan olunur. Belə hesab edilir ki, nə qədər müştəri xidmət üçün müəyyən edilmiş məbləği ödəyir, o satıcı ilə borcbordir. Əgər müştəri artıq pul vermək çalışırsa, bununla o göstərilən xid-məti dəyərdən salır, borabor mübadiləni dilonçi-yə verilən ianəyə çevirir.

Yaponiyada olduğumuz yeddi gün ərzində paytaxtda nə taxac gördük, nə də maşınların siqnal səsini eşitdik. Bunun bir səbəbi də ondadır ki, gündoğar ölkədə dəmiryol xətləri dəniz nəqliyyə-tı ilə birlikdə ölkənin əsas nəqliyyat arteriyasıdır. Müasir sürət qatarları ölkənin əksər şəhərlərini birləşdirdiyi kimi, meqapolisin demək olar bütün daxili marşrutlarına da xidmət göstərir. Yerli və uzaq xətlərə xidmət göstərən qatarlar özləri də sadə ekspressləro, "limited-ekspressləro" və sadə elektrik qatarlarına bölünürlər. Məsafəsindən asılı olmayaraq, bütün yapon qatarları yumşaq kres-lolar, kafe və soyuq-içki avtomatları, şəhər telefo-nu, yapon və ingilis dilində tablolarla təmin edil-mişdir.

Bu ölkədə dəmir yollarının yarıdan çoxu şəxsi mülkiyyət hesab olunur. Sərnişin daşıyan sahib-karlar ölkənin dəmir yollarının 70 faizinə nəzarət edirlər. Bəlkə elə buna görədir ki, ölkədə nəqliyy-at xidməti çox bahadır. Məsələn, metroya ən ucuz bilet 140 yen, yəni 1 dollar civarındadır. Əs-lində buna dəyər də. Çünki maqnit üzərində hərə-kət edən qatarların sürəti saatda 500 kilometrə çə-ta bilir və qatarlar çox dəqiq işləyirlər. Orta gecik-mə müddəti yalnız 18 saniyə ola bilər. Buna bax-mayaraq, qatarlarda həddən artıq sıxlıq olur ki, buna görə dünyanın heç bir ölkəsində olmayan bir peşə bu ölkədə "koşf edilmişdir". Stansiyalarda qapıda qalanları itələməklə vəzifələndirilən şəxs-lər olur. Xüsusi təlim keçmiş bu adamlar dolmuş vaqonların qapılarında qalmış adamları içəri itələ-yirlər ki, vaqonun qapısı bağlansın və gecikməsin.

Maraqlı müşahidələrimdən biri də ondan iba-rət oldu ki, sürət qatarının bir vaqonundan o birinə keçən nəzarətçi dərhal papağını çıxarıb sərni-şinlərə təzim edir, yalnız bundan sonra biletləri yoxlamağa başlayır.

Yaponlar danışarkən heç vaxt səslərini qaldır-maz və kimsə də bunu edəndə özlərinə qarşı təh-qir hesab edərlər. Onların səbri və bir-birinə ehti-ramla yanaşmaları qibtə olunası qədər gözəl bir haldır.

Bayaq qeyd etdiyim kimi, yaponlarda şərəf və ləyaqət qədim zamanlarda olduğu kimi indi də çox mühüm keyfiyyət sayılır. Xatırlayırsınızsa, keçmiş baş nazir Yukio Hatoyama seçkiqabağı verdiyi vədləri yerinə yetirə bilmədiyi üçün özü könüllü surətdə istefaya getdi.

Yaponiyanın avtomobil yolları hoqiqətən adamı heyrətə gətirir. Ancaq onların bəzi özəlliklərini bizə danışanda bu millətin özünə və insanlara qayğısına daha çox heyrət etdik. Bizi müşayiət edən dostlarımız məlumat verdilər ki, Yaponiya-nın şimal şəhərlərinə qar çox yağır. Ona görə də bu şəhərlərdə səkilər və küçələr qızdırılır ki, don-masın və bədbəxt hadisələr baş verməsin. Bu səbəbdən qarı təmizləməyə də ehtiyac qalmır.

Bilirsiniz ki, Yaponiya aktiv seysmik ərazidə yerləşir. Elə bir gün olmur ki, bu ölkədə hardasa zəlzələ baş vermosin. Ona görə də Yaponiyada insanların istifadə etdikləri bütün telefonlarda ek-strimal hallarda milləto xəbərdarlıq edən sistem-lər quraşdırılıb. Elə ki hər hansı kataklizm baş verdi, bütün telefonlarda güclü səs siqnalı işə dü-şür, hətta telefon söndürülmüş vəziyyətdə olsa belə. Və dərhal telefona hadisə barədə məlumat gə-lir və insanlara özlərini necə aparmağın qaydaları xatırladılır. Bax belə-belə işlər, əziz oxucular...

Ardı var